**20013-cü il üçün 1-ci "Mobilik qrantı" müsabiqəsinin (EİF-Mob-1-2013-1(7)) qalibi olmuş lahiyənin yerinə yetirilməsi üzrə yekun elmi-texniki**

# HESABAT

Məlumunuz olduğu kimi Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə - **Grant № EİF-Mob-1-2013-1(7)-16/10/3** 1-5 iyul 2013-cü il tarixində Şotlandiyanın Edinburq şəhərində keçiriləcək "Cənubi Qərbi Asiyanın (Qafqaz ölkələri də daxil) 8-ci Bitkilərin Həyatı"("Plant Life of South WestAsia 8") üzrə Beynəlxalq konfransda iştirak etdim. 1970-ci ildən bəri hər beş ildən bir təşkil olunan bu konfrans dünyanın 24 müxtəlif ölkələrindən, o cümlədən Azərbaycan, ABŞ, İngiltərə, Almaniya, Türkiyə, İsrail, Rusiya, Gürcüstan və s. ölkələrin alimlərinin və gənc tədqiqatçılarının, o cümlədən bitkilərin mühafizəsi sahəsində dərin təcrübəyə malik mütəxəsislərinin görüşməsinə, onların əməkdaşlıq və informasiya mübadiləsinə xidmət etmişdir. Beynəlxalq konfransın son günü 5 iyul 2013-cü il tarixində "Central Botanical Garden of Azerbaijan National Academy of Sciences: *ex situ* collection and native plant reserves of priority plant species" adlı şifahi məruzə ilə çıxış etdim. Şifahi məruzədə özünün biomüxtəlifliyinin zənginliyi baxımından Qafqazda xüsusi çəkisi olan ölkəmizin prioritet bitki növləri, onların mühafizə olunmasında Mərkəzi Nəbatat Bağının rolu haqqında tədbir iştirakçılarına məlumat verilmişdir. Eyni zamanda Azərbaycanın Qırmızı Kitabının yeni nəşri ilə əlaqədar Azərbaycan florasının prioritet bitki növlərinin, xüsusilə endem və nadir bitki növlərinin *in situ* və *ex situ* mühafizəsinin daha çox məqsəduyğun və müasir üsullarla qorunması imkanına malik olmaqla dünya elminə də öz töhvəsini verə biləcəyi vurğulanmışdır. Çıxışdan sonra mövzu ilə əlaqədar müxtəlif suallar cavablandırılmışdır.

Bioloji müxtəlifliyin mühafizəsi və davamlı istifadəsi nəinki Azərbaycan, eləcə də dünya birliyi ölkələrinin birgə fəal səyi nəticəsində mümkündür. Bu mövzu ilə əlaqədar istər fasilələr (kofe-breklər) zamanı istərsə də digər asudə vaxtlarında məşhur alim Prof. Dr. Vernon Heywood (Reading Universiteti, BB), Yoachim Gratzfeld (BGCI, BB), Prof. Dr. Adil Güner (Nezahat Gökyiğit Botanik Bahçesi, Türkiyə), Ali Kandemir (Erzincan Universiteti, Türkiyə), Prof. Dr. Klaus Mummenhoff (Osnabrück Universiteti, Almaniya), Dmitri Geltman (V.L. Komarov adına Botanika İnstitutu, Rusiya Elmlər Akademiyası) və s. alimlərlə fikir mübadiləsi aparılmışdır. Eyni zamanda biomüxtəlifliyin, xüsusilə bitki müxtəlifliyinin mühafizəsinin əhəmiyyəti ilə bağlı maarifləndirmə məsələlərində Botanika Bağlarının rolu, bünün üçün görülməsi məqsədəuyğun elmi-tədqiqat fəaliyyətləri, Botanika Bağlarının həm ümumtəhsil məktəblərinin şagirdləri, həm də ali məktəblərin Biologiya ixtisasasının tələbələri ilə qarşılıqlı tədbirlər planı necə olması barədə diskussiyalar olmuşdur. Müzakirələr zamanı əldə olunan nəzəri və praktik biliklər, eləcə də dünya təcrübələrindən faydalanaraq endem, nadir və iqtisadi əhəmiyyəti olan prioritet bitki növlərinin növü və populyasiyalarının monitorinqi, müasir elmi yanaşmalar çərçivəsində onların *in situ* və *ex situ* mühafizəsi və davamlı istifadəsinə imkan verəcək yeni lahiyə, strategiyalar və təqvim-tematik planların hazırlanmasında geniş istifadə olunacaqdır.

10.07.2013

**İmza:** **B.ü.f.d. Rəşad Allahverdi oğlu Səlimov**

**Lahiyənin rəhbəri**